**1991-ci il mayın 19-da Şuşada bir körpə dünyaya göz açdı. Bu körpənin beşiyinin başında ana laylası çalınmadı, muğamlarımız oxunmadı. Gözünü açar-açmaz güllə səsi eşitdi, mərmi səsinə oyandı yuxudan. İnsanlara ölüm gətirən müharibənin şahidi kimi doğulan körpə tökülən qanlara etiraz edirmiş kimi, elə beşikdəcə yumruğunu düyünlədi.**




# Şuşanı azad etməyə getmişdi

Anası Həqiqət xanım həmin günləri göz yaşları ilə xatırlayır: "Nurlan doğum evində dünyaya gələndə qəfil yaxınlığa top mərmisi düşdü. Xəstəxananın pəncərələri çilik-çilik dağıldı. Körpəm qorxudan diksinib yuxudan ayıldı. Elə ağlayırdı ki, sakitləşdirmək mümkün deyildi. Elə bil o günahsız körpələrin fəryadı olub dünyaya hayqırmaq istəyirdi: "Nədir mənim günahım?"

Şuşanın işğal gününə qədər ailə doğma yurdlarında yaşadı. Amma Nurlan demək olar ki, işıq üzü görmürdü. Top mərmisindən, düşmən gülləsindən qorunmaq üçün ana balaca körpəsini sinəsinə sıxıb gününü qaranlıq zirzəmilərdə keçirirdi. Həqiqət xanım deyir ki, Şuşadan çıxmaq məcburiyyətində qaldıqları gün Nurlanın səsini kəsmək mümkün deyildi: "Elə bil bir yaşı tamam olmamış uşaq Şuşanın işğalına dözməyib bağırır, haray salırdı. Oğlum sanki bir arzuyla böyüyürdü - Şuşanı işğaldan azad görmək! Həmişə təkrar-təkrar deyərdi: "Doğulduğum torpağı əsarətdə qoymayacağam. Şuşaya girən birinci əsgər mən olacağam. Qələbə bayrağını Şuşanın ən yüksək zirvəsinə mən sancacağam".

Haqqında söhbət açdığımız cəsur döyüşçü Nurlan Nadir oğlu Həsənov 1991-ci il mayın 19-da Şuşa şəhərində "26-lar məhəlləsi"ndə anadan olmuşdu. Nurlan ailənin ilk övladı idi. 1992-ci il mayın 8-də erməni daşnakları Şuşanı işğal edəndə Nadirlə Həqiqət xanım Nurlanı sinələrinə sıxıb Şuşanı tərk edən sonuncu şuşalı olublar.

Xatirələri Həqiqət xanımı geriyə, o dəhşətli günlərə qaytarır: "Mən Xankəndidə doğulub boya-başa çatmışam. Poliklinikada tibb bacısı işləyirdim. Xankəndini ən sonuncu tərk edən mən olmuşam. Qəti inana bilməzdim ki, biz müdafiəsis qalarıq, əlacsız duruma düşüb doğma torpağımızı tərk edərik. Ermənilər işdən çıxdığımı hiss etməsinlər deyə, işdən çıxıb Şuşaya qalxanda xalatımı da çıxarmadım. Şuşa əlçatmaz bir yer, yüksəklik idi. Deyirdim ki, Şuşaya heç kim girə bilməz. Bir gün gördük ki, Şuşa da əlimizdən çıxdı. Evdən çıxanda adyala büküb bircə balamı götürə bildim. "Qızıl qum" sanatoriyasında yerləşdik. Nurlan isə ağlı söz kəsəndən "Şuşa" deyirdi".






Nurlanın atası söhbətə qoşulur: "Çox əziyyətlər çəkdik. Nə torpağımızı unutduq, nə inamımızı itirdik. Bilirdik ki, o torpaqlara qayıdacağıq. Prezidentimizin dediyi "Xalqımız əmin olsun ki, bir qarış torpağımızı da düşmən tapdağı altında qoymayacağıq" sözləri təsəllimiz idi. Nurlan da sanki böyüməyə, əsgər olmağa, vətənini qorumağa tələsirdi. Qaygıkeş uşaq idi. Bizə qəti zəhmət verməzdi. Ağlı kəsəndən işini özü görməyə çalışardı. Bakıdakı Şuşa şəhər 3 nömrəli tam orta məktəbdə oxuyurdu. Məktəbin sevimlisi idi. Biz də onunla fəxr edirdik. 2008-ci ildə həmin məktəbi əla qiymətlərlə başa vurub Gəncədə Texnologiya Universitetinin İnzibati idarəetmə fakültəsinə qəbul olmuşdu. Dörd ildə cəmi bir dəfə yanına getmişdik. Onda da dedi ki, uşaq deyiləm, bir də zəhmət çəkib gəlməyin. Vətənpərvər idi. Ali məktəbi bitirib zabitlik kursuna yazıldı. Leytenant rütbəsində Naxçıvanda hərbi xidmətdə oldu. 2020-ci ildə Vətən müharibəsi başlamazdan əvvəl gedib könüllü olaraq müraciət etmişdi ki, mən zabitəm, təlimlərdə iştirak etmək istəyirəm. Hər zaman vətənpərvərliyi, mərdliyi, əsl kişi xarakteri ilə fərqlənən balam döyüşə gedəndə də kişi kimi getdi. Müharibəyə getdiyini bizə bildirmədi ki..."



Həqiqət xanım söhbəti davam etdirir: "Nurlan 2020-ci il sentyabrın 21-də könüllü olaraq hərbi təlimə gedirdi. Bir gün evə gəldi ki, ön cəbhəyə gedirəm. Ailəsini, uşaqlarını Şəmkirə aparmışdı. Dedim ki, Nurlan, get Nurgülü, Məhəmmədi mütləq gör, sonra ön cəbhəyə gedərsən. Mənə "yaxşı" dedi. Bir də gördüm ki, Füzulidən zəng edib. "Ana, məndən narahat olmayın, burda hər şey yaxşıdır, Şuşanı almağa gəlmişəm", - dedi. Çox qısa danışdı. Oktyabrın 2-də işdə idim. Ağlımdan da keçməzdi ki, gözümün nuru məni, ailəsini ömürlük gözüyaşlı qoyar. Telefonuma zəng gəldi. Dedilər ki, Nurlan yaralanıb, tez evə gəl. Fikirləşdim ki, yaralını evə niyə gətirirlər? Evə gəldim ki, Nurlanım şəhid olub, Şuşada bayraq qaldırmağa gedən oğlumu bayrağımıza büküb gətiriblər".

Xalqımızın qəhrəman oğlu, Vətənini canından çox sevən Nurlan oktyabrın 1-də Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu.

Nurlanın arzusu Şuşada qələbə bayrağımızı ilk ucaldan döyüşçü olmaq idi. O günü Nurlan görməsə də, yüzlərlə gəncimiz müqəddəs torpaqlarımız uğrunda canlarını fəda edərək Şuşanı azad etdilər.

Həqiqət xanım: "İlk dəfə Şuşaya gedəndə oğlumun bükülüb gəldiyi üçrəngli müqəddəs bayrağı da özümlə Şuşaya aparıb azad şəhərimin ən uca zirvəsində açaraq dedim: "Nurlanım, sənin görmədiyin Şuşa indi azaddır. Bu torpaq indi gözəl Şuşadır, cənnət Şuşadır..."

Bu günlər Şuşa dirçəlir, küçələri, məscidləri, mədəniyyət ocaqları yenidən bərpa olunur, qaçqın düşmüş insanlar öz doğma yurdlarına qayıdırlar. Şuşada həyat yenidən canlanır. Və bu gün hər kəs inanır ki, şəhidlərin ruhu da Şuşada doğulan körpələrlə birgə yenidən dünyaya gəlir.

Şəhid leytenantın övladlarının hər ikisi məktəbə gedirlər. Nurgül deyir: "Atamla qürur duyuram. Şəhidlər yalnız bizim yox, xalqımızın qəhrəmanlarıdırlar".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Nurlan Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Bu gün Biləcəri qəsəbəsində şəhidin yaşadığı küçəyə onun adı verilib.

Nurlanın taleyi bir həyat hekayəsi deyil, bütöv bir xalqın yaddaşıdır. O, ömrü ilə sübut etdi ki, igidlik, vətənpərvərlik doğulduğun torpağa bağlılıqla ölçülür. Azərbaycan xalqı heç vaxt şəhidlərini unutmayacaq.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*